Elm .- 2025.-28 noyabr (№38).- S.8.

# Rəyasət Heyəti aparatının Mülki müdafiə şöbəsinin iclası

**AMEA-nın Rəyasət Heyəti aparatının Mülki müdafiə şöbəsinin geniş tərkibli iclası keçirilib.**



İclası giriş sözü ilə açan Rəyasət Heyəti aparatının Mülki müdafiə şöbəsinin rəisi Nizami Vəliyev bildirib ki, bu il AMEA-nın 80 illik yubileyi qeyd olunur. Bu dövr ərzində AMEA respublikanın əsas elmi mərkəzi və ziyalı ocağı funksiyasını şərəflə yerinə yetirib. Ölkəmizin elmi kadrlarının formalaşmasında AMEA hər zaman əsas rola malik olub. Akademiyanın inkişafı Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf edir. Müzəffər Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin respublikaya rəhbərlik etdiyi dövr AMEA-nın yeni inkişaf mərhələsi oldu. Cənab Prezidentin AMEA-nın 80 illik yubileyinin keçirilməsi ilə bağlı Sərəncamı, yubiley tədbirində iştirakı, burada geniş və konseptual nitq söyləməsi bunun daha bir bariz nümunəsidir.

Nizami Vəliyev bildirib ki, Zəfər bayramının 5 illik yubileyi də təntənəli surətdə qeyd olundu. Dünyada belə şanlı qələbələrin sayı çox azdır. Belə zəfər dolu qələbənin sevincini yaşamaq çox az xalqa nəsib olub. Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin 5 il öncə müdrik və cəsarətli rəhbərliyi ilə müzəfffər ordumuz döyüş meydanında qəhrəmanlıq salnaməsi yazdı.

Sonra çıxış edən Birinci və İkinci Qarabağ müharibəsinin iştirakçısı, istefada olan polkovnik Namiq Abdullayev 44 günlük müharibənin hərbi baxımdan unikal bir əməliyyat olduğunu deyib.

Daha sonra çıxış edən şöbənin rəis müavini Hikmət Babayev cari məsələlər haqqında məlumat verib. Bildirib ki, elmi müəssisə və təşkilatlarda mülki müdafiə üzrə sənəd dövriyyəsi qənaətbəxş vəziyyətdədir. Bu il akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun Mülki müdafiə qərargahı rəisi Namiq Abdullayev və Əlyazmalar İnstitutunun Mülki müdafiə qərargahı rəisi Nəsim Məmmədov Fövqəladə Hallar Nazirliyinin mülki müdafiə kurslarında iştirak edərək sertifikatlar alıblar. Növbəti ildə də Mülki müdafiə qərargah rəislərinin FHN-nin kurslarında iştirakı və sertifikatlar alması təmin ediləcəkdir. Əməkdaşların təlimlərdə iştirakı və sertifikasiyası baxımından AMEA ən nümunəvi qurumlardan sayılır. AMEA-nın Rəyasət Heyəti aparatının Mülki müdafiə şöbəsi elmi müəssisə və təşkilatlarda mülki müdafiə işinin təşkili ilə daim yaxından tanış olur, köməkliyini göstərir.

Sonda cari məsələlər ətrafında fikir mübadiləsi aparılıb, rəy və təkliflər müzakirə olunub.